**AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ (UNEC)**

**Təsdiq edirəm:**
**"İqtisadiyyat" kafedrasının**
**müdiri: i.ü.f.d., dos.S.İ.Hümbətova**

# İNSTİTUSİONAL İQTİSADİYYAT

## FƏNNİ ÜZRƏ İŞÇİ TƏDRİS PROQRAMI
## (Sillabus)

| Fakültə | **İqtisadiyyat və idarəetmə, Biznes inzibatçılığı** | | | | |
|---|---|---|---|---|---|
| Kafedra | **İqtisadiyyat** | | | | |
| Fənnin kodu | **00428** | | | | |
| Fənnin növü | **Seçmə** | | | | |
| Tədris dili | **Azərbaycan** | | | | |
| Tədrisin forması, tədris yükü | Semestr<br>**Payız** | Tədris yükü:<br>**60 saat** | Mühazirə<br>**30 saat** | Məşğələ<br>**30 saat** | Kredit<br>**6** |
| **I. Fənnin təsviri** | «İnstitutsional iqtisadiyyat» kursunun müstəqil tədris fənni kimi öyrənilməsi milli iqtisadiyyatın tənzimlənməsi sahələri üzrə yüksək ixtisaslı iqtisadçıların hazırlanmasında böyük əhəmiyyətə malikdir. Bazar iqtisadiyyatının yeni formalaşdığı Azərbaycanda bu kursun tədrisi xüsusilə vacibdir, çünki hazırkı tələbələrin – gələcək iqtisadçıların ölkənin iqtisadi həyatında baş verən dinamik dəyişikliklərin elmi-praktiki əhəmiyyətini qavramağa, iqtisadi inkişafın perspektivlərini düzgün müəyyənləşdirmək əsasında iqtisadi prosesləri idarə etməyə imkan verən ciddi elmi-nəzəri biliklər bazasına yiyələnməsinə ciddi ehtiyac duyulur.<br>Müasir bazar münasibətləri milli iqtisadiyyatın inkişafının mühüm istiqamətlərini, cəmiyyətdə iqtisadi inkişaf qanunauyğunluqlarının mahiyyətini və təsir mexanizmlərini qavramağa, həmçinin bu sahədə elmi biliklərdən təcrübədə istifadə etmək bacarığına əsaslanan yeni iqtisadi düşüncə tərzinin formalaşmasını tələb edir.<br>Bu sahədə qabaqcıl bilik və bacarıqlar məhz «İnstitutsional iqtisadiyyat» fənninin əsaslı şəkildə mənimsənilməsi prosesində əldə edilə bilər. Bu fənni dövlətin əsaslandırılmış iqtisadi siyasətinin işlənib hazırlanması üçün ciddi elmi-nəzəri əsas sayılır və ölkədə baş verən bütün iqtisadi-hüquqi proseslərin rolunu və mahiyyətini anlamaqda tələbələrə kömək edir. | | | | |

| | |
|---|---|
| **II. Fənnin məqsədi və vəzifələri** | «İnstitutsional iqtisadiyyat» fənninin dərindən öyrənilməsi mikroiqtisadiyyat və makroiqtisadi, milli iqtisadiyyatın idarə edilməsi üzrə digər iqtisadi yönümlü fənlərin mənimsənilməsi üçün vacib əsasdır.<br>**Fənnin tədrisinin məqsədi:**<br>«İnstitutsional iqtisadiyyat» kursunun əsas məqsədi – tələbələrdə iqtisadiyyat və onun inkişafının əsas qanunauyğunluqları haqqında, müasir dünya təcrübəsi nəzərə alınmaqla Azərbaycan iqtisadiyyatının səmərəli idarə olunması sahəsində idarəçilik fəaliyyəti ilə bu qanunauyğunluqların qarşılıqlı əlaqəsi üzrə sistemli təsəvvür formalaşdırmaqdır.<br>Fənnin tədrisi elə planlaşdırılmışdır ki, tələbələr institutsional iqtisadiyyatın ümumi nəzəri praktiki yiyələnəcək, sonrakı tədris fənlərini öyrənərkən bu kurs daxilində qazandıqları bilik və bacarıqları daha da möhkəmlədəcək, həmçinin müstəqil iş prosesində iqtisadi nəzəri və təcrübi kompetensiyalara yiyələnəcəklər.<br>«İnstitutsional iqtisadiyyat» fənninin mənimsənilməsi iqtisadiyyat sahəsində mövcud bilikləri sistemləşdirməyə və genişləndirməyə, həmçinin tələbələrdə müasir iqtisadiyyatın inkişafı üzrə əsaslı təsəvvür formalaşmasına kömək edəcək.<br>«İnstitutsional iqtisadiyyat» fənninin öyrənilməsi nəticəsində tələbələr əsas iqtisadi anlayışlar və kateqoriyalar, onların qarşılıqlı əlaqəsini mənimsəyəcək; mürəkkəb və bütöv sistem kimi milli iqtisadiyyat haqqında, mülkiyyət, bazar, rəqabət, biznes, dövlət və başqa təsisatların rolu haqqında təsəvvür əldə edəcək. Kursun öyrənilməsi prosesində tələbələrə gələcəkdə lazım olacaq iqtisadi anlayışlar və iqtisadi düşüncə tərzi formalaşacaq, bu da öz növbəsində, digər fənlərin öyrənilməsini asanlaşdıracaq.<br>**Fənnin tədrisi qarşısında duran vəzifələr aşağıdakılardır:**<br>- institutsional iqtisadiyyat və onu xüsusiyyətləri barədə tələbələrdə tam təsəvvür formalaşdırmaq;<br>- institutsional iqtisadiyyatın müxtəlif yanaşmalar üzrə və səviyyələrdə səciyyələndirilməsini tələbələrə başa salmaq;<br>- müasir iqtisad elminin predmeti və metodları haqqinda biliklər əldə etmək;<br>- tədris prosesində institutlar, onların formalaşması və fəaliyyətinin tənzimlnməsi sahəsində vərdişlər əldə etmək:<br>- dövlət tərəfindən institutların fəaliyyətinin təşkili üzrə həyata keçirilən tədbirlərlə reallaşması prinsipləri ilə tanış olmaq;<br>- iqtisasi proseslərin idarə edilməsində institutsional yanaşmanın üstünlüklərini tələbələrə aşılamaq;<br>- institutsional inkişafın zəruriliyi və səmərəsinin cəmiyyətin inkişafında rolu ilə tanış olmaq;<br>- milli iqtisadiyatın inkişafında institutların fəaliyyətinin koordinaiya mexanizmlərinin səmərəli təşkilinin zəruriliyini tələbələrə başa salmaq.<br>**Fənnin, tədris planının digər fənləri arasında yeri.**<br>Bu fənnin öyrənilməsi orta məktəbdə tələbələrin əldə etdiyi ictimai bliklərə istinad edir, iqtisadi hüquq, makroiqtisadiyyat, milli iqtisadiyyat, maliyyə, müəssisə iqtisadiyyatı, və s. bu kimi tətbiqi iqtisadi fənlərin dərindən öyrənilməsi üçün zəruri əsasdır. |
| **III. Öyrənmənin nəticələri:** | «İnstitutsional iqtisadiyyat» fənninin mənimsənilməsindən sonra tələbələr:<br>**Bilməlidirlər:**<br>1. institutsional iqtisadiyyatın formlşmasının nəzəri metodoloyi əsaslarını;<br>2. institutsional iqtisadiyyatın tənzimlənməsinə dair müasir nəzəriyyələri; |

| | |
|---|---|
| | 3. iqtisadiyyatın dövlət tənzimlənməsinə institutsional aspektlərini;<br>4. institutsional iqtisadiyyatın idrə edilməsinin qanunauyğunluqlarını;<br>5. iqtisadiyyatın dövlət tənzimlənməsi alətləri və mexanizmlərini.<br>**Bacarmalıdırlar**:<br>1. Milli iqtisadiyyatın formalaşmsının probleminin tədqiqi üçün iqtisadi təhlil metodlarını bacarıqlq tətbiq etmək.<br>2. İnstitutsional iqtisadiyyatın tənzimlənməsində dövlətin mövqeyini dəqiq müəyyənləşdirmək üzrə əsaslandırılmış əməli qərarlar qəbul etmək;<br>3. İnstitutsional iqtisadiyyatın inkişaf istiqamətlərini düzgün proqnozlaşdırmaq;<br>4. İnstitutsional iqtisadiyyatın inkişaf məsələlərinin səmərəli həlli variantlarını işləyib hazırlamaq<br>**Tanış olmalıdır:**<br>1. İinstitutsional iqtisadiyyatın inkişafının təhlilin əsas istiqamətləri ilə;<br>2.İqtisadi inkişafın mühüm istiqamətlərinin idarə ediməsi problemlərinin səmərəli həlli üçün iqtisadi təhlildən bacarıqla istifadə məsələləri ilə. |
| **IV. Fənnin mühazirə mövzuları** | **Fənnin tədrisi prosesində tələbələrə təqdim ediləcək mühazirələr**<br>1. İnstitutsional iqtisadiyyat, məzmunu və mahiyyəti.<br>2. Fəaliyyətlər və qərarlar<br>3. İnstitutlar və hüquq.<br>4. Transaksıyalar və transaksıya xərcləri.<br>5. Xarici effektlər. Kouz və Pozner nəzəriyyələri.<br>6. Koordınasıya mexanızmlərı.<br>*7.* Kollektiv fəaliyyətlər.<br>*8.* Yeni institusional dövlət nəzəriyyəsi.<br>9. Dövlət tənzimləməsinin institusional aspektləri.<br>10. Dünya təsərrüfat sistemində gizli iqtisadiyyat. Qeyri-formal iqtisadiyyat.<br>11. İnstitutların mənşəyi. İnstitusional dəyişikliklər.<br>12. İnstıtutların ıqtısadı təhlili, ıstehsalının ınstıtutsıonal alternatıvlərı.<br>13. Bazarların tənzimlənməsinin diskret institusional alternativləri.<br>14. Təbii inhisarların tənzimlənməsinin diskret institusional alternativləri. |
| **V. Fənnin mühazirə mətnləri** | Fənnin bütün mövzuları üzrə mühazirə mətnləri, müzakirə sualları və tapşırıqlar, habelə müxtəlif növ məşğələ materialları elektron formatda Universitetin saytında «Virtual universitet» bölməsində (www.vu.aseu.az) yerləşdirilir. |
| **VI. Prerekvizitlər** | Orta məktəb kursları - «ictimaiyyət», «riyaziyyat», «tarix». |
| **VII. Fənnin tədris metodologiyası** | «İnstitutsional iqtisadiyyat» fənninin öyrənilməsi prosesində tədrisin aşağıdakı metodları istifadə olunur: mühazirələr; mühazirələrdə işıqlandırılan və ev tapşırıqlarında formulə edilən əsas problemlərin müzakirə edildiyi seminarlar; kompüter məşğələləri; yazılı və ya şifahi ev tapşırıqları; hesablama-təhlil, hesablama-qrafik tapşırıqları; tələbələr tərəfindən hazırlanmış esselərin müzakirəsi; müəllimlərin məsləhətləri; tələbələrin nəzəri materialın mənimsənilməsini ehtiva edən sərbəst işi, seminar məşğələlərinə hazırlıq, yuxarıda göstərilmiş yazılı işlərin yerinə yetirilməsi.<br>Bundan əlavə tədris və təlim prosesində xarici və yerli iqtisadi ədəbiyyatdan, habelə beynəlxalq və yerli mediadan (internet resurslarından) götürülmüş məqalələrin, real nümunələrin və xüsusi keyslərin təhlilinə, müzakirəsinə və məntiqi nəticələr |

| | |
|---|---|
| | çıxarılmasına xüsusi diqqət ayrılacaq. Verilən biliklərin tətbiqi bacarıqlarının formalaşdırılması üçün tələbələr mövzuya uyğun seçilmiş tapşırıqları həll edəcəklər.<br><br>Hər bir yeni mövzunun tədrisi öncəsi tələbələr müəyyən olunmuş mətnləri və onlara təqdim edilmiş (tapşırılmış) digər qiraət materialları ilə tanış olmalıdırlar. |
| **VIII. Əsas dərslik və dərs vəsaitləri** | **Əsas dərslik**<br>1. A.A.Auzan. *İnstitusional iqtisadiyyat. Yeni institusional iqtisadi nəzəriyyə. (Azərbaycan dilində tərcümə, Ə.Babayev və b.)*N.)<br>*2.* Логинова Т.П., Лядова Е.В. Институциональная экономика: Учебное пособие. М.<br>**Əlavə dərsliklər**<br>3. Qreqori Mənkyu. *Ekonomiksin əsasları*. Azərbaycan dilində. (E.İbadov və.b. tərcüməsi<br>4. H.B.Allahverdiyev. iqtisadiyyatın hüquqi tənzimlənməsinin əsasları. Dərs vəsaiti<br>5. İqtisadi nəzəriyyə kursu. A.V. Sidoroviçinümumi redaktəsi ilə.Azərbaycan dilində. |

**IX. Mövzuların məzmunu və tədris-tematik bölgüsü**

| Həftə № | Mövzular | Mü ha zirə | Məş ğələ | Öyrənmə hədəfləri |
|---|---|---|---|---|
| 1. | **İnstitutsional iqtisadiyyat, məzmunu və mahiyyəti.**<br>*Mənbə:A.A.Auzan. İnstitusional iqtisadiyyat. Yeni institusional iqtisadi nəzəriyyə. (Azərbaycan dilində tərcümə, Ə.Babayev və b.)Səh.11-22* | 1 | 1 | 1. İnstusionlizmin tarixi və müasirlik.<br>2. Yeni institusional nəzəriyyə<br>3. İnstitusional iqtisadi nəzəriyyənin fəlsəfi əsasları. Praqmatizm fəlsəfəsi.<br>4. F.Mirovskinin DMD burulğan modeli. |
| 2 | **Fəaliyyətlər və qərarlar.**<br>*Mənbə:A.A.Auzan. İnstitusional iqtisadiyyat. Yeni institusional iqtisadi nəzəriyyə. (Azərbaycan dilində tərcümə, Ə.Babayev və b.) Fəsil1,1,* | 2 | 2 | 1.Məhdud resursların istifadə haqqında qərarların qəbul edilməsi: fərdin mərkəzi rolu.<br>2.Məhdud səmərəlilik.<br>3.Qərarların qəbul edilməsi.<br>4.Fərdi və kollektiv qərarlar. |
| 3. | **İnstitutlar və hüquq**<br>*Mənbə:A.A.Auzan. İnstitusional iqtisadiyyat. Yeni institusional iqtisadi nəzəriyyə. (Azərbaycan dilində tərcümə, Ə.Babayev və b.) Fəsil 2,3.* | 3 | 3 | 1.Məhdud resursların istifadə edilməsi haqqında qərarların qəbul edilməsi: fərdin mərkəzi rolu.<br>2.Məhdud səmərəlilik.<br>3.Qərarların qəbul edilməsi.<br>4.Fərdi və kollektiv qərarlar. |
| 4. | **Transaksıyalar və transaksıya xərcləri.**<br>*Mənbə:A.A.Auzan. İnstitusional iqtisadiyyat. Yeni institusional iqtisadi nəzəriyyə. (Azərbaycan dilində tərcümə, Ə.Babayev və b.) Fəsil 4.* | 4 | 4 | 1.Transaksiyalar anlayışı və növləri.<br>2.Transaksiya xərcləri anlayışı. Transaksiya xərcləri və istehsal xərclər.<br>3.Transaksiya xərclərinin növləri.<br>4.Informasiyanın axtarışı və alternativlərin aşkar edilməsi xərcləri.<br>5.Ölçmə xərcləri.<br>6.Danışıqların aparılması və kontraktların bağlanması xərcləri.<br>7.Mülkiyyət hüquqlarının spesifikləşdirilməsi və müdafiəsi xərcləri<br>8.Opportunist davranış xərcləri. |
| 5. | **Xarici effektlər. Kouz və Pozner** | 5 | 5 | 1.Xarici effektlərin müəyyən edilməsi və təsnifatı. |

| | | | | |
|---|---|---|---|---|
| | **nəzəriyyələri.**<br>*Mənbə:A.A.Auzan. İnstitusional iqtisadiyyat. Yeni institusional iqtisadi nəzəriyyə. (Azərbaycan dilində tərcümə, Ə.Babayev və b.) Fəsil 5.* | | | 2. Xarici effektlər probleminin həllinə ənənəvi yanaşma.<br>3. Kouz teoremi və onun əhəmiyyəti.<br>4. Pozner qaydası. |
| 6. | **Koordınasıya mexanızmlərı.**<br>*Mənbə:A.A.Auzan. İnstitusional iqtisadiyyat. Yeni institusional iqtisadi nəzəriyyə. (Azərbaycan dilində tərcümə, Ə.Babayev və b.) Fəsil6,7,8.* | 6 | 6 | 1.Koordinasiya mexanizmləri anlayışı və növləri.<br>2.Bazar – koordinasiyanın xüsusi mexanizmidir.<br>3.Bazar qarşılıqlı təsirinin xərcləri və gəlirləri və bazarın hüdudları.<br>4.Bazarların növləri. |
| 7. | **Kollektiv fəaliyyətlər.**<br>*Mənbə:A.A.Auzan. İnstitusional iqtisadiyyat. Yeni institusional iqtisadi nəzəriyyə. (Azərbaycan dilində tərcümə, Ə.Babayev və b.) Fəsil 9.* | 7 | 7 | 1. «Biletsiz adam problemi» və kollektiv fəaliyyətlər problemi.<br>2. İqtisadi nemətlərin tipologiyası.<br>3. Qrupların tipologiyası.<br>4. Qrup və nemətlərin parametrləri kollektiv fəaliyyətlər probleminin amilləri kimi .<br>5. Kollektiv fəaliyyətlər probleminin həlli: institusional sazişlərin səviyyəsi.<br>6. Kollektiv fəaliyyətlər probleminin həlli: sosial mühitin səviyyəsi – sosial kapital.<br>7. Kollektiv fəaliyyətlər probleminin həllinin olmaması. |
| 8. | **Yeni institusional dövlət nəzəriyyəsi.**<br>*Mənbə:A.A.Auzan. İnstitusional iqtisadiyyat. Yeni institusional iqtisadi nəzəriyyə. (Azərbaycan dilində tərcümə, Ə.Babayev və b.) Fəsil 10.* | 8 | 8 | 1. İqtisadi nəzəriyyədə güc və hakimiyyət.<br>2. Anarxiyanın (hərc-mərcliyin) iqtisadi nəzəriyyəsi – güc potensialının bərabər bölgüsü halı.<br>3. Güc potensialının qeyri-bərabər bölgüsü – dövlətin genezisi.<br>4. İctimai müqavilə nəzəriyyələri.<br>5. Dövlətin fəaliyyəti, idarəedənin (hökumətin) stimulları və agent problemləri. |
| 9. | **Dövlət tənzimləməsinin institusional aspektləri.**<br>*Mənbə:A.A.Auzan. İnstitusional iqtisadiyyat. Yeni institusional iqtisadi nəzəriyyə. (Azərbaycan dilində tərcümə, Ə.Babayev və b.) Fəsil1,7.* | 9 | 9 | 1.Dövlətin institusional təbiəti. Dövlətin mahiyyəti və tərifi.<br>2.Dövlətin funksiyaları.<br>3.Dövlət və iqtisadi nəticələr.<br>4.Cəmiyyətdə «status kvo»nun (əvvəlki vəziyyət) təyin olunması.<br>5.«Biletsiz sərnişin» problemi, «cəzanın dilemması».<br>6.Dövlətin müqavilə və istismarçı konsepsiyası |
| 10. | **Dünya təsərrüfat sistemində gizli iqtisadiyyat. Qeyri-formal iqtisadiyyat.**<br>*Mənbə:A.A.Auzan. İnstitusional iqtisadiyyat. Yeni institusional iqtisadi nəzəriyyə.* | 10 | 10 | 1. Qeyri-formal bölmənin iqtisadi təbiəti.<br>2. Qeyri-formal iqtisadiyyatda institusional sazişlər.<br>3.Qeyri-formal iqtisadiyyatda qaydaların təminatı<br>4. Qeyri-formal iqtisadiyyat empirik tədqiqatlarda. |

| | | | | |
|---|---|---|---|---|
| 11. | **İnstitutların mənşəyi. İnstitusional dəyişikliklər.**<br>*Mənbə:A.A.Auzan. İnstitusional iqtisadiyyat. Yeni institusional iqtisadi nəzəriyyə. (Azərbaycan dilində tərcümə, Ə.Babayev və b.) Fəsil1,13.* | 11 | 11 | 1. İnstitusional dəyişikliklər anlayışı və sxemi.<br>2. İnstitutlar və institusional dəyişikliklərin meydana gəlmə mexanizmi.<br>3. İnstitusional dəyişikliklərin yayılma mexanizmləri.<br>4. İnstitusional dəyişikliklərin ümumiləşdirilmiş təsnifatı.<br>5. İnstitusional ətalətin dəf edilməsi problemi. |
| 12. | **İnstitutların iqtisadi təhlili, istehsalının institusional alternativlərı.**<br>*Mənbə:A.A.Auzan. İnstitusional iqtisadiyyat. Yeni institusional iqtisadi nəzəriyyə. (Azərbaycan dilində tərcümə, Ə.Babayev və b.) Fəsil1,14.* | 12<br>13 | 12<br>13 | 1. İnstitusional təhlil və onun tipləri.<br>2. Təhlilin baza üsulları<br>3. İntellektual fəaliyyətin ümumi və spesifik nəticələri.<br>4. İntellektual fəaliyyətin ümumi nəticələrinin natamam istehsalı problemi.<br>5. İfn istehsalını həvəsləndirən alternativ institutlar.<br>6. Alternativ institutların nisbi üstünlüklərinə və çatışmazlıqlarına təsir edən amillər. |
| 13. | **Bazarların tənzimlənməsinin diskret institusional alternativləri.**<br>*Mənbə:A.A.Auzan. İnstitusional iqtisadiyyat. Yeni institusional iqtisadi nəzəriyyə. (Azərbaycan dilində tərcümə, Ə.Babayev və b.) Fəsil1,16.* | 14 | 14 | 1. İqtisadi tənzimləmənin növləri.<br>2. Tənzimləmənin diskret institusional alternativlərarasında seçim.<br>3. Tənzimləmənin diskre institusional alternativləri seçiminin formallaşdırılmış üsulları. |
| 14. | **Təbii inhisarların tənzimlənməsinin diskret institusional alternativləri.**<br>*Mənbə:A.A.Auzan. İnstitusional iqtisadiyyat. Yeni institusional iqtisadi nəzəriyyə. (Azərbaycan dilində tərcümə, Ə.Babayev və b.) Fəsil1,17.* | 15 | 15 | 1.Təbii inhisarların fəaliyyət göstərməsinin diskret institusional alternativlərinin müqayisə edilmə meyarları.<br>2. Təbii inhisar subyektinin fəaliyyət göstərməsinin institusional alternativləri.<br>3.Diskret institusional alternativlərin müqayisəli təhlili. |

**SEMİNAR MƏŞĞƏLƏLƏR: HAZIRLIQ VƏ QİYMƏTLƏNDİRMƏ**

Seminar-məşğələ dərslərində tələbə öz fikirlərini məntiqi ardıcıllıqla ifadə və izah etməyi, habelə arqumentlərlə əsaslandırmağı bacarmalıdır. Buna nail olmaq üçün tələbə:

1.Seminar məşğələsinin hər bir mövzusu üzrə müzakirəyə çıxarılan suallarla diqqətlə tanış olmalı;
2.Müvafiq mühazirə materiallarını diqqətlə öyrənməli;
3.Mövzu üzrə tövsiyə edilən ədəbiyyatı oxumalı və öyrənməli;
4.Seminar məşğələsində müzakirəyə çıxarılan hər bir sual üzrə qısa çıxış hazırlamalı;
5.Mövzu üzrə verilən tapşırıqları və məsələləri yerinə yetirməklə praktik bacarıqlara yiyələnməlidir.

Tələbənin məşğələdəki hər bir cavabı 10 ballıq sistem üzrə 0-10 bal arasında (maksimum 10 bal olmaqla) qiymətləndirilir. Semestrin sonunda smestr ərzində tələbənin bütün cavab balları toplanır və tələbənin cavablarının ümumi sayına bölünməklə orta qiymət (bal) hesablanır.

**FƏNN ÜZRƏ QİYMƏTLƏNDİRMƏ** (***Əyani təhsilalma forması üzrə)***

UNEC-də bakalavriat səviyyəsində təhsilin bütün illəri üzrə fənlərin attestasiyası hər biri 50 bal formalaşdıran cari və aralıq qiymətləndirmə (toplam 100 bal) əsasında həyata keçirilir. Cari qiymətləndirmə bakalavrların bilik və bacarıqlarının semestr ərzində qiymətləndirilməsi, aralıq qiymətləndirmə isə imtahan sessiyası zamanı həyata keçirilən qiymətləndirmədir.

Cari qiymətləndirmə üzrə 50 bal bakalavrların semestr ərzində topladıqları ***aktivlik və ara qiymətləndirmə***

ballarının cəmlənməsi ilə formalaşır. Aktivlik balı fənn üzrə semestr ərzində maksimal 20 bal ola bilər və bu bal tədrisi mühazirə və seminar dərsləri ilə həyata keçirilən fənlərdə seminar dərslərində alınan ballar əsasında fənlərin tədris növünə uyğun olaraq formalaşır.

Seminar dərslərində (qabiliyyət tələb edən fənlər istisna olmaqla) alınan ballar əsasında formalaşan yekun aktivlik balı aşağıdakı düsturla müəyyən edilir:

**B = (((b1+b2+b3+...+bn)/s)*m)/10**

**Burada,**

B - yekun aktivlik balı;
b - seminar dərslərində alınan müxtəlif ballar;
s - semestr ərzində verilən cavabların sayı;
m - aktivlik balına ayrılan maksimal bal;
10 - bir seminar dərsində toplanan maksimal baldır.

Bakalavrlar semestr ərzində cəmi 4 dəfə, hər dəfə isə 10 bal aldığı halda maksimal aktivlik balını - 20 balı toplamış olur. Bu halda nəticə sistemdə (((10+10+10+10)/4)*20)/10 = 20 olaraq hesaba alınır.

Maksimal bal toplaya bilməyənlər isə istədiyi halda 5-ci, 6-cı, 7-ci və s. dəfə cavab verməklə aktivlik balı toplaya bilərlər. Bu zaman müəllim ilkin olaraq həmin qrupda ümumilikdə 4 dəfə cavab verməyənlərdən başlamaqla növbəlilik prinsipi əsasında bakalavrların cavab verməsi üçün imkan yaradır.

Bakalavrlar semestr ərzində seminar dərsində 4 dəfədən az cavab verdiyi halda çatışmayan cavab sayı sistem tərəfindən “0” bal olmaqla nəzərə alınır. Məsələn, əgər hər hansı təhsilalan bir fənn üzrə semestr ərzində cəmi 2 dəfə seminar dərsində cavab verib və hər dəfə 10 bal aldığı halda onun yekun aktivlik balı hesablanan zaman həmin təhsilalanın nəticəsi (((10+10+0+0)/4)*20)/10 kimi hesablanır. Seminar dərsində ümümiyyətlə balı olmayan tələbənin aktivlik balı isə “0” bal hesab edilir.

Semestr ərzində təhsilalanların hər bir fənn üzrə topladığı nəticə tam olmadığı halda semestrin sonunda sistem tərəfindən adi riyazi qaydada həmin nəticələr yuvarlaqlaşdırılır (məs. 6,5 bal – 7 bal kimi nəzərə alınır).

***Ara qiymətləndirmə.*** fənn üzrə semestr ərzində maksimal 30 bal formalaşdıran və ilk 7 tədris həftəsi ərzində keçilmiş mövzular üzrə (7-ci həftə də daxil olmaqla) aparılan qiymətləndirmədir. Ara qiymətləndirmə mərkəzləşdirilmiş qaydada test üsulda 8-ci və 9-cu tədris həftələri ərzində keçirilir.

Test üsulunda keçirilən ara qiymətləndirmə zamanı fənn üzrə təhsilalanlara 30 test təqdim olunur. Testlərin hər biri 1 balla qiymətləndirilir və səhv cavablandırılmış testlər düz cavablara təsir etmir.

***Aralıq qiymətləndirmə.***

Aralıq qiymətləndirmə semestr ərzində keçilmiş bütün mövzular üzrə tərtib edilən test imtahan sualları əsasında həyata keçirilir. Aralıq qiymətləndirmə zamanı hər bir fənn üzrə təhsilalanlara 50 test təqdim olunur. Testlərin hər biri 1 balla qiymətləndirilir və səhv cavablandırılmış testlər düz cavablara təsir etmir.

## İMTAHAN VƏ İMTAHANA GƏDƏR TOPLANAN BALLAR ƏSASINDA SEMESTR NƏTİCƏSİNƏ GÖRƏ QİYMƏTLƏNDİRMƏ

| 91-100 bal | əla | A |
|---|---|---|
| 81-90 bal | çox yaxşı | B |
| 71-80 bal | yaxşı | C |
| 61-70 bal | kafi | D |
| 51-60 bal | qənaətbəxş | E |
| 51 baldan aşağı | qeyri-kafi | F |

***QEYD:*** İmtahanda minimum 17 bal toplanmasa, imtahana qədər yığılan ballar toplanmayacaq.